BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Təbiət elmləri seriyası 2010*

# «AVESTA» QANUNLAR TOPLUSUNDA VƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANINDA TƏBİƏTƏ MÜNASİBƏT

**A.T.MƏMMƏDOV, Q.T.MUSTAFAYEV, M.Ə.QASIMZADƏ**
***Bakı Dövlət Universiteti***
***mamedoveko@mail.ru***

*Məqalədə qədim zamanlardan ekologiyanın yaranmasına qədər olan dövrdə əhalinin ətraf mühitə münasibətlərinin ən parlaq, ibrətamiz nümunələrindən bəhs olunur. «Avesta» qanunlar toplusunda təbiətə münasibətin, eləcə də Dədə Qorqud dastanının Azərbaycan xalqı tərəfindən sevilməsi ənənəsinin ekoloji aspektləri açıqlanıb, əhalidə ekoloji mədəniyyətin formalaşmasında əhəmiyyəti göstərilib.*

Ekologiyanın bir elm kimi yaranmasına qədər əhalinin qədim dövrlərdən başlayaraq ətraf mühitə pozitiv münasibətləri olub. Bu münasibətlərin cəmi «Ekologiyadan əvvəlki «ekologiya» adlandırılıb (7). O dövrdə bitki və heyvanlar istifadə edilərkən onların yaşadığı mühit nəzərə alınıb, təbii sərvətlərdən istifadəyə səmərəli istiqamət verilib. Məsələn, qədim yunan alimi və filosofu Aristotel (e.ə. IV əsr) bioloji məqsədəuyğunluq təlimini yaradıb. Platonun məktəbində dərs alan Aristotel suda yaşayan heyvanları iki qrupa ayırıb: ilk su heyvanları və sonradan təkrar su mühitinə qayıtmış heyvanlar. Aristotelin «Poetika» adlı əsərində bədii ədəbiyyatın təsvir obyektini və predmetini təbiət və cəmiyyətin əlaqəsi təşkil edir. Məlumdur ki, təbiət hər şeydən öncə əhali üçün bioloji həyat, ekoloji təminat, estetik zövq və gözəllik mənbəyidir. Lakin kim bilir, bəlkə də dünyanın nəsil-nəsil rəssamlarının, şair və yaradıcılarının, alim və mütəffəkkirlərinin təbiəti vəsf etmə incəlikləri Aristotelin «Poetika»sından qaynaqlanır?! Aristotelin müəllimi Hippokrat əhalidə xəstəliklərin yayılmasında suyun, torpağın və havanın iştirakını göstərib. Bir sözlə, əhali yarandığı dövrdən başlayaraq indiyədək təbiəti öyrənməklə yanaşı, həm də ondan faydalanmağa çalışıb. Bu işdə «uğurlar» da olmuş, uğursuzluqlar da.

Qədim Azərbaycanda ətraf mühitə qayğıkeş münasibət həyatın əsas şərti hesab edilmişdir. Azərbaycan xalqının maddi-mədəniyyət abidələrində, folklorunda, dini-fəlsəfi baxışlarında təbiətə doğma münasibət aydın görünür.

Məlum olduğu üzrə «Avesta» atəşpərəstlərin qanun-qayda toplusu olub, eramızdan 9-6 əsr əvvəl Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda meydana gəlib və bu xalqların qədim mədəniyyət abidəsidir (6, 10).

«Avesta»nın bir çox müddəaları Xəzər (Kaspi) dənizi ilə, habelə azərbaycanlıların yaşadıqları ərazilə bağlıdır. Belə ki, «Avesta»da hava, torpaq, od və su müqəddəs sayılır. Bu da Yaxın Şərq xalqlarının, xüsusən də Azərbaycan xalqının fəlsəfi, ictimai, ekoloji və bədii fikrində geniş yayılmış hadisədir. «Avesta»da deyilir ki, su ilə odun qarışığından müqəddəs bir maye yaranır, onun mənbəyi Xəzər dənizinin dibidir. O, zahirə çıxdıqda alışıb yanır, yəni söhbət sadəcə olaraq dəniz nef-

tindən, Xəzərin təkindən çıxan neftdən gedir ki, bu da «Avesta»nın Azərbaycan mənşəli olduğunu göstərir.

«Avesta»da əhalidən cismani təmizlik (bədənin, evin və digər əşyaların təmiz saxlanması) və əxlaqi təmizlik (niyyətlərin, əməllərin və hərəkətlərin) təmiz olması tələb olunur. Cəmiyyətin xeyrinə əmək, xüsusən əkinçi əməyi ən yaxşı, ən yüksək nemət sayılır. «Avesta»nın təbliğ etdiyi əxlaq ən əvvəl əkinçilərin, digər kənd əməkçilərinin əxlaqıdır.

«Avesta» qanunlar toplusunda işıq ilə qaranlığın, xeyir ilə şərin, nur və zülmətin kəskin mübarizəsi göstərilir, lakin sonda xeyir qalib gəlir. Canlılar məhvedici qüvvələrdən qorunur, bunun üçün müqəddəsləşdirmə variantına üstünlük verilir. «Heyvan qurbanlıq üçündür» fikri «Avesta»da qəbul edilmir, bunun əksinə canlı təbiətə sonsuz sevgi aşılanır.

«Avesta»da qeyd olunur ki, dünyanın naz-nemətlərindən qaydasında istifadə edilməli, bunlar insanlara fayda verməli, həyatı rövnəqləndirməlidir. Şərabı az içmək lazımdır, yalnız bu halda şərab qidanın həzminə kömək edir, həyat atəşini alovlandırır, qan dövranını sürətləndirir, rəngi duruldur, dərdi dağıdır, zehnin fəaliyyətini gücləndirir, hafizə itiləşir, görmə və eşitmə qabiliyyəti artır, nitq rəvanlaşır, yuxu şirinləşir, gümrahlıq insanın qəlbində xeyirxahlıq oyadır, dostluq münasibətlərini möhkəmləndirir .

«Avesta»nın gözəlliyə və əməksevərliyə çağırışı, həyatı daim zənginləşdirmək və zinətləndirmək şüarları bizim dövrümüz üçün də mənasını, əhəmiyyətini itirməmiş və indi də müasir səslənir. Bu sözlər həmin fikri daha da mənalandırır, cazibədar edir: «Güc-qüvvət, səadət, xoşbəxtlik, var-dövlət həmişə olacaqdır, tənəklər həmişə çiçəkləyəcək, bar verəcəkdir. Lakin zövq-səfa, həzz, röya ötüb keçir, gül tikansız olmadığı kimi, səadət də əzabsız, məşəqqətsiz olmur» (6, 10).

Ətraf mühitə qayğıkeş münasibət milli abidəmiz olan «Kitabi-Dədə Qorqud» dastanında (VI-VII əsrlər) daha aydın görünür. Zəngin tariximizin, qədim mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qürur duyulası nümunələrindən olan «Kitabi-Dədə Qorqud» qəhrəmanlıq eposudur, özü də bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Lakin eyni zamanda «Kitabi Dədə Qorqud» bizim etika kitabımız, əxlaq kodeksimiz, həm də ətraf mühitə münasibətimizin ən sivil, ən pozitiv, ən nümunəvi bir göstəricisidir. Qısaca desək «Kitabi-Dədə Qorqud» bizim irsi proqramla gəlmiş ekoloji təfəkkürümüzdür, özü də ibrətamiz ekoloji təfəkkürümüz. Böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, bitkilərə, heyvanlara, ən nəhayət, vətənə sədaqətdir. Bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və sona qədər qalır (1, 11, 12).

Eposdakı təbiət təsvirləri, eləcə də canlılara münasibətin forması, oğuz türklərinin ətraf mühitə necə doğmalıqla, ehtiyatla yanaşmasını göstərir. Təbiət elementlərini müqəddəs varlıq kimi dəyərləndirən oğuzlar təbiəti – insan, insanı da – təbiət kimi qəbul ediblər. «Kitabi-Dədə Qorqud»da təbiəti qorumağa aid elə maraqlı, təsirli, ibrətamiz tövsiyələr var ki, onların ekoloji mənasına və müasirlik üçün nə qədər böyük əhəmiyyətə malik olduğuna heyran olmamaq mümkün deyil. Dirsə xanın namuslu, ismətli qadını nələr hesabına yeganə övlad əldə etdiyindən və bu yolda nəzir-niyazlar verdiyindən, Allaha xoş getsin deyə nə kimi savab işlər gördüyündən danışarkən bu əməllər sırasında «quru-quru çaylara suçu saldım, dilək ilə bir oğul buldum.»- deyir. Görün bu sözlərdə nə qədər dərin ekoloji məna var! Məlum olur ki,

hələ o vaxtlar quruyan çayları xilas etmək üçün tədbirlər görülür, suçulardan istifadə olunur və bu səvab, nəcib bir iş sayılıb, nəzir-niyazla bərabər tutulurmuş.

Pak və müqəddəs işlərin, səvab və nəcib hərəkətlərin, halal əməllərin xoş nəticələr verəcəyinə və əksinə, murdar və rəzil hərəkətlərin, çirkin və haram əməllərin pisliklə bitəcəyinə inanan, Allah haqqı sevən bir çoban kafirlərə nifrət və qəzəbini bildirərkən deyir ki, «sizin tutduğunuz alçaq əməllər üzündən təbiət də ağlayır. Dağlar otsuz, çaylar susuz qalmışdır:

«Mərrə, dini yox, əqilsiz kafir!.
Ysu yox, dərnəksiz kafir!
Qarşı yatan qara dağlar.
Qarıyıbdır otu bitməz,
Qanlı-qanlı irmaqlar
Quruyubdur suyu gəlməz.» (5)

Boyların birində Beyrək ana təbiətin bizə bəxş etdiyi nemətlərdən, dağlardan, yaylaqlardan, soyuq-soyuq sulardan danışır. Acı-acı şikayətlər edən «qara bağrının dəlindiyini» söyləyən qız isə başına gələn müsibətlər sırasında «dağın parçalanmasını, kölgəlik ağacın məhv olmasını, dünyəlikdə bircə qardaşının tutulduğunu bildirir. Təbiət ilə cəmiyyətin, əhali ilə ana təbiətin qarşılıqlı münasibətinə, vəhdətinə əsaslanan bu sözlərin dərin humanist, etik-ekoloji, əsl bəşəri mənası aydın görünür. Təbiətin dərdləri qardaşın aparılması ilə bir tutulur, bir arada qeyd olunur. Qeyd edək ki, bütün bu fikirlər müasir ekologiyanın tədqiqat obyektidir. Onu da unutmayaq ki, bu fikirlərin 1300 il tarixi var.

«Kitabi-Dədə Qorqud» eposunda təbiətin canlanmasına, qorunmasına, yararlı hala düşməsinə və bu halda saxlanmasına bütün el sevinir. Bunu vətənpərvərliklə ana torpağın qeyrətini çəkmək, onu qorumaq ilə yanaşı tuturlar. Oğluna öyüd-nəsihət verən, qardaşını axtarmağa, oğuz bəylərinə kömək göstərməyə göndərən ananın dililə deyilir:

«Qarşı yatan qara dağın
Yıxılmışdı ucaldı axır.
Axıntılı görklü suyun
Soğulmuşdu çağladı axır.
Qaba ağacda dal budağın
Qurumuşdu, göyərdi axır!» (5)

«Kitabi-Dədə Qorqud» dastanı üçün səciyyəvi olan ümumi cəhətlərdən biri də altruist əxlaqın təbliğidir. Altruizm, latınca «alter-başqası» sözündəndir. Belə bir əxlaqi prinsipə görə, adam gərək öz eqoizmini (latınca «eqo»- mən deməkdir ) atsın, təmənnasız olaraq başqasına xeyir versin. İslam dinində, ümumiyyətlə, Yaxın Şərq ədəbiyyatında və fəlsəfəsində əhaliyə təmənnasız xeyir vermək, xüsusən də əzilənə, zəifə kömək etmək fikri geniş yer tutur (11, 12).

«Dədə Qorqud»da ağaca, suya, dağlara, təbiət hadisələrinə, çırağa and içilir, onlar müqəddəsləşdirilir. Maraqlıdır ki, «Dədə Qorqud»da təbiətdəki canlı və cansız varlıqlar tərif və vəsf olunarkən islam dininə və onunla bağlı olan hadisələrə istinad edilir, bu varlıqlar islam dini baxımından şərh olunur. Məsələn, Qazan xan «su haqq didarın görmüşdür» deyib ona müraciət edərkən suyun xassələrini sadalayır və onu «Həsən ilə Hüseynin həsrəti» «Ayişəylə Fatimənin nigahı» adlandırır.

Qazan xanın oğlu Uruz ağacla söhbətində onu: «Məkkə ilə Mədinənin qapısı; Musayi Kəzimin əsası; Şahmərdan Əlinin düldülüyünün əyəri; Şah Həsənlə Hüseynin beşiyi» adlandırır.

Oğuzların ətraf mühitə münasibətində antisanitar şəraitə qarşı mübarizə aydın görünür. Qaraca çoban öldürdüyü düşmənlərin meyitlərini yığıb yandırır. Beləliklə də hər hansı infeksiya təhlükəsi törədilərək yolxucu xəstəliklərin təbii mənbələrinin əmələ gəlməsinə imkan qalmır. Bu, mikrobiologiyanın olmadığı o dövrdə yaşamış ulularımızın ətraf mühitin sağlamlaşdırılması qayğısına qalmalarını göstərir.

## ƏDƏBİYYAT

1. Abdullayev K. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud - 2. Bakı: Yeni Nəşrlər Evi, Elm, 1999, 288 s.
2. Cəmşidov Ş. «Kitabi-Dədə Qorqud»u vərəqləyərkən. Bakı: Gənclik, 1969, 98 s.
3. Əfəndiyev Elçin. Kitabi Dədə Qorqud aliliyi. Bakı: Azərbaycan, 2003, 146 s.
4. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Yeni Nəşrlər Evi, Elm, 1999, 216 s.
5. Kitabi-Dədə Qorqud Ensiklopediyası. 2 cilddə, 1 cild. Bakı: Yeni Nəşrlər Evi, 2000, 620 s.
6. Makovelski A.O. Avesta, Bakı: 1960, 130 s.
7. Mustafayev Q.T. Təbiətin qorunması (dərs vəsaiti). Bakı: Bakı Universiteti, 1970, 194 s.
8. Mustafayev Q.T., Məmmədov A.T. Həyat və poeziya. Bakı: MBM, 2006, 544 s.
9. Müseyibov M. «Dədə Qorqud»un coğrafiyası. Bakı, BDU, 2000, 30 s.
10. Qasımzadə F.F. «Avesta»dan bu günədək, Bakı: Bilik, 1982, 52 s.
11. Qasımzadə F.F. İki fenomen və islam, Bakı: İrşad, 2003, 220 s.
12. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I cild. Bakı: Çıraq, s.174-536.

## ОТНОШЕНИЕ К ПРИРОДЕ В СВОДЕ ЗАКОНОВ «АВЕСТА» И НАРОДНОМ ЭПОСЕ «КИТАБИ-ДЕДЕ КОРКУД»

**А.Т.МАМЕДОВ, Г.Т.МУСТАФАЕВ, М.А.КАСИМЗАДЕ**

### РЕЗЮМЕ

Экология, как наука сформировалась со второй половины 19-го века. Однако взаимоотношение между природой и людьми существует от самого начало появления человека. Статья посвящена идеям и трудам человеческого общества, приложенным в направлении доброго отношения к окружающей среде до появления экологии как науки в Азербайджане. Статья посвящена экологическим аспектам законодательства «Авеста» и этнического эпоса «Деде Коркуд». Предлагается поощрение позитивного отношения людей к окружающей среде до появлении экологии как науки.

## ENVIRONMENTAL FRIENDLINESS IN “AVESTA” COLLECTION OF LAWS AND “KITABI-DEDE GORGUD” EPOS

**A.T.MAMMADOV, G.T.MUSTAPHAYEV, M.A.QASIMZADEH**

### SUMMARY

Ecology, as a separate science formed after the second half of the XIX c. Nevertheless the interrelation between the nature and people has existed since the beginning of the man’s appearance. The article is dedicated to the ideas and works of the human society applied in the direction of a friendly relation to the environment until the appearance of Ecology as a science in Azerbaijan. Some ecological aspects of “Avesta” and the national epos “Dede Gorgud” are reflected in the article. In the end, some encouragements of people’s environmental friendliness before the appearance of contemporary Ecology are presented.